# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 329** **Bakı şəhəri, 8 sentyabr 2020-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası"nın təsdiq edilməsi haqqında" 2006-cı il 20 dekabr tarixli 266 nömrəli, "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin təsdiq edilməsi barədə" 2018-ci il 12 yanvar tarixli 12 nömrəli, "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativləri"nin təsdiq edilməsi barədə" 2020-ci il 7 fevral tarixli 33 nömrəli qərarlarında dəyişiklik edilməsi və "Tibbi sığorta müqaviləsinin forması və bağlanma Qaydasının təsdiq edilməsi haqqında" 2001-ci il 6 mart tarixli 58 nömrəli, "Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2019-cu il 11 iyun tarixli 264 nömrəli qərarlarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanunun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 24 dekabr tarixli 898 nömrəli Fərmanının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 20 dekabr tarixli 266 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1155) ilə təsdiq edilmiş "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası"nın 9-cu hissəsində "vətəndaşın yaşadığı ərazi üzrə müvafiq səhiyyə orqanının büdcə vəsaiti" sözləri "dövlət büdcəsinin vəsaitləri" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 128) ilə təsdiq edilmiş "Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri"nin 2.1.2-ci yarımbəndinin ikinci abzasının birinci cümləsində "İcbari tibbi" sözləri "Tibbi" sözü ilə əvəz edilsin və həmin cümlədən "(bu sığorta növü tətbiq edilən ərazilərdə)" sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 fevral tarixli 33 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 184) ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisəsini maliyyələşdirmə Normativ-ləri"nin 2.1.2-ci yarımbəndinin ikinci abzasının birinci cümləsindən "(bu sığorta növü tətbiq edilən ərazilərdə)" sözləri çıxarılsın.

**4.** "Tibbi sığorta müqaviləsinin forması və bağlanma Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabin etinin 2001-ci il 6 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 213; 2008, № 2, maddə 108, № 6, maddə 581; 2015, № 7, maddə 874; 2016,
№ 6, maddə 1219, № 10, maddə 1717) ləğv edilsin.

**5.** "Tibb təchizatçısının və ya tibbi ərazi bölməsinin icbari tibbi sığorta çərçivəsində göstərdiyi tibbi xidmətlərlə bağlı hesabatların təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 iyun tarixli 264 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019,
№ 6, maddə 1153) ləğv edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş Naziri***